Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Uşaq və gənclərin fiziki və mənəvi inkişafı**

# 8 Noyabr Zəfəri - gənclərə örnək tarix...

**2020-ci ilin 8 Noyabr Zəfəri Azərbaycan tarixinin yeni dövrünün əsasını qoydu. Müasir tarixşünaslığımızda Zəfər adlı yeni səhifə açılıb ki, bu səhifədə minlərlə qəhrəmanlıq dastanı əks olunub. 44 günlük Vətən müharibəsinin bitməsini şərtləndirən 8 Noyabr xalqımızın tarixinə şanlı Zəfər Günü olaraq daxil olub.**

8 Noyabr tarixinin gənc nəslin və uşaqların mənəvi tərbiyəsinin formalaşmasında oynadığı rol həqiqətən də çox yüksəkdir. Təbii olaraq, 44 günlük Vətən müharibəsində qazanılan qələbə gənc nəslin mənəviyyatını daha da gücləndirib, onlarda qalibiyyət ruhunu formalaşdırıb. Rəşadətli Azərbaycan ordusunun əsgər və zabitləri öz nümunəvi döyüş yolları və müstəsna qəhrəmanlıqları ilə uşaq və gənclərin qəlbində Vətən sevgisini daha da gücləndirdi.

**Zəfərinlə çox yaşa, dünya durduqca yaşa, Azərbaycan!**

Azərbaycanın zəfəri gəncliyin həyatında əsaslı rol oynadı və bu şanlı qələbə misralara köçdü, obrazlaşdı...

Bizə Zəfər yaşatdı,
İgid oğullarımız.
Hər birini anırıq,
Minnətdarıq hamımız!

Azərbaycan əsgər və zabitinin qəhrəmanlığı, bizə Zəfər yaşatması misralarda, bədii və sənədli əsərlərdə, tarix kitablarında, publisist məqalələrdə əks olundu. Mübağiləsiz deyə bilərik ki, 8 Noyabr əvvəllər sıradan bir təqvim olsa da, üç ildir xalqımızın qürur günüdür, qürur tarixinin bərpası günüdür, Şuşanın azadlıq təntənəsidir. O Şuşanın ki, Azərbaycanın, türk və islam dünyasının göz bəbəyidir, bu gün bütün dünyanın maraq göstərdiyi şəhərdir, bu üç ildə Şuşada onlarla beynəlxalq tədbir keçirilib. Təsəvvür edin ki, ürəyi Azərbaycan sevgisi ilə döyünən hər kəs Zəfər Gününü illərdir həsrətlə gözləyirdi. Ekspertlər qeyd edir ki, 2020-ci ilin sentyabrında başlanan Zəfər yürüşünə ölkə gəncləri könüllü şəkildə qoşuldular, onlar əsgər və zabitlərimizlə böyük qürurla çiyin - çiyinə döyüşdülər və misilsiz qələbə əldə etdilər. Qarabağı işğaldan igidlərimiz azad etdilər. Məlumdur ki, 44 gün davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edildi. Ekspertlərin qeyd etdiyinə görə, 44 gündə müzəffər Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında Zəfəri yalnız tanklarla, toplarla deyil, ağılla, zəkayla və bir də insan zehninin ən son nailiyyəti olan PUA-larla qazanmaq olar. Ekspertlər qeyd edir ki, Şuşa qalasının alınması əməliyyatı isə tamam başqadır. Sirr deyil ki, düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu.

**Zəfərdən zəfərə...**

Müzəffər Ali Baş Komadan İlham Əliyev 8 noyabr 2020-ci ildə Azərbaycan xalqına müraciətində "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz



dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir"-deyə bildirirdi. Ölkə başçısının bu fikirləri Azərbaycan gənclərində çox güclü vətənpərvərlik ovqatı yaratdı. Qələbədən sonra Azərbaycan igidlərinin qəhrəmanlığı cəmiyyətdə geniş təbliğ edilməyə başladı. 10 noyabr 2020-ci il tarixində Azərbaycan, Rusiya və Ermənistan liderləri üçtərəfli bəyanat imzaladılar. Bu gün tarixə həm də Ermənistan kapitulyasiya aktını imzaladığı gün kimi də düşüb.

Azərbaycanın qələbəsi təmin edilib. Bildiyimiz kimi, Azərbaycan bir güllə atılmadan diplomatik yolla 2020-ci ilin noyabrında 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də Laçın rayonları azad etdi. Təbii ki, Azərbaycanda Zəfər Gününün təsis edilməsi haqda Azərbaycan Prezidentinin sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanda Zəfər Gününün təsis edilməsi haqda prezidentin ilk fərmanı 2020-ci ilin dekab ayının 2-də verilib. Bu sərəncama əsasən Zəfər Günü hər il noyabrın 10-da keçirilməli idi. Lakin dekabrın 3-də noyabrın 10-nun Türkiyədə Mustafa Kamal Atatürkün anım günü olduğunu nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zəfər Gününün tarixinin dəyişdirilməsi barədə qərar qəbul etmişdir. Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq qələbə - Zəfər Günü hər il noyabrın 8-də təntənəli şəkildə qeyd edilməsi qərara alındı. Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin İkinci Qarabağ müharibəsindəki qələbəsini təmin edən mühüm amillər oldu. Bu müharibədə qələbə Prezident İlham Əliyevin bu qələbəni qeyd etmək üçün xüsusi bayram gününün təsis edilməsi barədə sərəncam imzalamışdır. Bu barədə sənədlərdə qeyd edilir.

**Zəfər dərsləri...**

Azərbaycanın Zəfər tarixinin ali və orta məktəblərdə tədris edilməsi ənənəsi yaradılıb. Bildiyiniz kimi, 2021-2022-ci tədris ilindən bütün ümumi təhsil müəssisələrinin IX siniflərində "Zəfər tarixi" kursunun tədrisinə başlanılıb. "Zəfər tarixi" kursu tədris dilindən asılı olmayaraq, bütün siniflərdə dövlət dilində - Azərbaycan dilində 1 saat tədris olunur. "Zəfər tarixi" dərsliyi Azərbaycan gənclərinə və uşaqlarına tədris edilməklə onlarda vətənpərvərlik ruhunun daha da yüksəlməsinə səbəb olur. Onlar içində yaşadıqları, şahidi olduqları tarixi dərsliklərdən də oxuyurlar. Əlbəttə, bu zəfərimizi qazananların, o qəhrəmanların təbliğində xüsusi rol oynayır. Əsas da son 200 ildə ilk dəfə Azərbaycan torpaqları işğaldan azad edilirdi. Antiterror tədbirləri nəticəsində Xankəndinin də azad olması nəticəsində torpaqlarımızın bütünlüyü təmin olundu. Məlum olduğu kimi, bu il 8 Noyabr Zəfər Günü Xankəndidə, xanın kəndində qeyd ediləcək. Şuşada da Zəfər Günün qeyd ediləcəyi xəbərlər sırasında yer alıb.

Bizə əbədi qələbə bəxş edən 8 Noyabr tarixi unudulmazdır...

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**